# İqtisadiyyatda strukturlaşan müasir model

Əsrlər boyu iqtisadi inkişafın əsas sütunlarından biri kimi qəbul edilən turizm sektoru bu gün dünyada fərqli istiqamətlərdə genişlənməkdədir. Bu çərçivədə əyləncə və oyun sənayesi, xüsusilə də kazinolar təkcə sosial və mədəni dinamikanın deyil, eyni zamanda regional turizmin canlanmasının əsas hərəkətverici qüvvələrindən birinə çevrilib. Müasir dövrdə bir çox ölkələr kazinoları iqtisadiyyatın mühüm elementi kimi tanımaqla yanaşı, onları xarici turist axınının artırılması, otelçilik və xidmət sahələrinin genişlənməsi və infrastrukturun modernləşdirilməsi baxımından strateji fürsət kimi dəyərləndirirlər.

(davamı 11-ci səhifədə)






# İqtisadiyyatda strukturlaşan müasir model

(əvvəli 1-ci səhifədə)

Hazırda dünyanın bir çox ölkələrində, o cümlədən qonşu Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Türkiyədə, Rusiyada, Çində, BƏƏ-də və digər dövlətlərdə cəmiyyətin maraq dairəsində olan və ölkə iqtisadiyyatında mühüm rol oynayan sahələrdən biri də kazino sektorudur. Bəzi ölkələrdə bu sahə təkcə əyləncə məkanı deyil, şəhərlərin əsas iqtisadi dayağı kimi çıxış edir. Kazino sənayesi vasitəsilə dövlət büdcəsinə sabit və yüksək həcmdə vergi daxilolmaları təmin olunur ki, bu gəlirlər daha sonra sosial və infrastruktur layihələrinə yönləndirilir. Mütəxəssislərin fikrincə, Azərbaycanda da kazino sektorunun leqallaşdırılması təkcə maliyyə baxımından əlavə gəlir mənbəyi, eyni zamanda qeyri-leqal oyun biznesinə qarşı ciddi zərbə olacaq. Artan turist axını fonunda ölkəmizdə istirahət və əyləncə məkanlarına olan tələbat da genişlənir. Bu baxımdan, digər qabaqcıl turizm ölkələrində olduğu kimi, Azərbaycanda da kazinoların fəaliyyətinə icazə verilməsi ölkə turizminin inkişafına əlavə təkan ola bilər.

Əhalisinin və ərazisinin həcminə görə Azərbaycandan kiçik olan Gürcüstan bu sahədə nümunə göstərilə bilər. Məsələn, 2024-cü ildə Gürcüstanda kazino sektorunun dövriyyəsi 28,5 milyard dollar təşkil edib. Həmin il bu sahədə 20 mindən artıq insan çalışıb. Bu gəlirlərin əhəmiyyətli hissəsi xarici turistlərin, xüsusilə də Azərbaycan vətəndaşlarının hesabına formalaşıb. Gürcüstanın əlverişli coğrafi mövqeyi isə onu regionda oyun sənayesinə maraqlı olan turistlər üçün cazibədar mərkəzə çevirib. Məsələn, Batumi və bütövlükdə Acarıstanda kazino sektorunun iqtisadiyyatdakı payı 30 faizi ötür ki, bu da olduqca ciddi göstəricidir.

Qazaxıstan da bu sahədə uğurlu təcrübəyə malikdir. Rəsmi statistikaya əsasən, 2023-cü ildə bu ölkədə qumar və mərclə bağlı fəaliyyət göstərən müəssisələrin ümumi gəliri 2,85 milyard dollar olub.

Özbəkistan bu ildən etibarən rəsmi şəkildə qumar oyunları üzrə lisenziyaların verilməsinə başlayıb. Bu addım, həm sosial, həm də iqtisadi baxımdan böyük əhəmiyyət daşıyır. Rəsmi məlumatlara əsasən, 2023-cü ildə ölkə vətəndaşları qeyri-leqal onlayn qumar platformalarında təxminən 1 milyard dollar xərcləyiblər. Qeyri-rəsmi mənbələr isə bu rəqəmin əslində 7-8 milyard dollar arasında dəyişdiyini bildirirlər. Dövlət bu nəzarətsiz və vergidən yayınan dövriyyəni leqallaşdırmaq məqsədilə lisenziyalı sistemə keçid qərarı verib. Yeni modelə əsasən, Özbəkistanda onlayn qumar və mərclə bağlı lisenziyalar Milli Perspektiv Layihələri Agentliyi tərəfindən 5 illik müddətə verilir. Bu sistemdə fəaliyyət göstərmək istəyən şirkətlər üçün 4,4 milyon dollar nizamnamə kapitalı və 2,2 milyon dollar ehtiyat fondu tələb olunur. Eyni zamanda, platformaların milli domenlər üzərindən fəaliyyət göstərməsi, istifadəçilərin identifikasiyası, proqram təminatlarının sertifikatlaşdırılması və vergi şəffaflığı da zəruri şərtlər kimi təqdim edilir. Proqnozlara görə, bu sahədən əldə olunan illik rəsmi gəlir yaxın illərdə 2 milyard dollara çata bilər.

2023-cü ildə Rusiya Federasiyasında kazino sənayesinin ümumi gəliri təxminən 2,1 milyard avro təşkil edib. Bu, ölkədə qumar sektorunun rəsmi məhdudiyyətlərə baxmayaraq, geniş tənzimlənən və gəlir gətirən iqtisadi sahələrdən biri olduğunu göstərir. Rusiya qanunvericiliyinə əsasən, kazinolar yalnız xüsusi təyinatlı oyun zonalarında - Soçi, Primorye, Kalininqrad, Altay və Krasnodar diyarlarında fəaliyyət göstərə bilər. Məhz bu bölgələrdə oyun sənayesinin inkişafı infrastrukturun genişlənməsinə, turizm axınının artmasına və yeni investisiya imkanlarının yaranmasına səbəb olub. Soçi və Vladivostokdakı oyun kompleksləri təkcə yerli vətəndaşların deyil, həm də Çin, Cənubi Koreya və Yaponiyadan gələn turistlərin maraq dairəsindədir. Kazino fəaliyyətindən daxil olan vergi və rüsumlar bölgə büdcələrinin gəlirlərində əhəmiyyətli yer tutur və bu vəsaitlər infrastruktur layihələrinin maliyyələşdirilməsinə, sosial proqramların dəstəklənməsinə yönəldilir. Bu təcrübə göstərir ki, ciddi nəzarət və məhdudiyyətlərlə yanaşı, planlı iqtisadi yanaşma qumar sektorunun ölkə iqtisadiyyatına təhlükəsiz və faydalı şəkildə inteqrasiyasına şərait yarada bilər.

Hətta ənənəvi olaraq qumar oyunlarına ciddi qadağaların tətbiq edildiyi Birləşmiş Ərəb Əmirliklərində belə, bu sahəyə münasibət son illərdə dəyişməkdədir. Uzun illər boyu kazinoların fəaliyyəti tamamilə qadağan olsa da, artıq BƏƏ rəhbərliyi qlobal turizm və investisiya tendensiyalarına uyğun olaraq mərhələli liberallaşma siyasəti həyata keçirməyə başlayıb. 2023-cü ildə bu sahəni tənzimləmək üçün xüsusi qurum olan Qumar Tənzimləmə İdarəsi (General Commercial Gaming Regulatory Authority) yaradılıb. Bu qurumun məqsədi həm oyun biznesinə nəzarət mexanizmlərini formalaşdırmaq, həm də ölkəyə gələcək xarici sərmayədarların fəaliyyətini qanuni çərçivəyə salmaqdır. Rəsmi məlumatlara əsasən, 2027-ci ildə BƏƏ-nin Rəs-əl-Xeymə əmirliyində ilk tamhüquqlu kazinonun açılması planlaşdırılır. Bu nəhəng layihə ABŞ-ın tanınmış oyun sənayesi nəhəngi olan Wynn Resorts şirkəti tərəfindən həyata keçiriləcək. "Wynn Al Marjan Island" adlı layihənin dəyəri 3,9 milyard dollar olaraq qiymətləndirilir və bu kompleksdə kazinodan başqa lüks otellər, konfrans mərkəzləri, əyləncə sahələri və alış-veriş zonaları da fəaliyyət göstərəcək. Bu addım BƏƏ-nin qeyri-neft sektorunu, xüsusilə də turizmi daha da gücləndirmək, bölgəyə yüksək gəlirli turist axınını təmin etmək niyyətindən xəbər verir. Əmirliklər kimi ciddi dini və hüquqi çərçivəyə malik bir ölkənin belə bu sahəni tənzimləmə yolu ilə inkişaf etdirməsi, qumar sektorunun qlobal iqtisadi modeldə artan strateji rolunu bir daha təsdiqləyir. Belə təcrübələr, öz iqtisadiyyatını şaxələndirməyə çalışan digər ölkələr, o cümlədən Azərbaycan üçün də maraqlı nümunə ola bilər.

Çin Xalq Respublikasında qumar oyunları qanunla qadağandır, lakin istisna təşkil edən xüsusi inzibati bölgə olan Makao (Macau) bu sahədə həm regional, həm də qlobal miqyasda unikal mövqeyə malikdir. 1999-cu ildə Portuqaliyadan Çinə qaytarıldıqdan sonra Makao öz iqtisadi və hüquqi muxtariyyətini qoruyaraq kazino sənayesini qanuni əsasda inkişaf etdirməyə davam edib. Hazırda bu ərazidə 30-dan çox lisenziyalı kazino fəaliyyət göstərir ki, bu obyektlər yalnız Asiyada deyil, bütün dünyada oyun sənayesinin aparıcı mərkəzlərindən birinə çevrilib. Makao iqtisadiyyatının təqribən 80 faizi birbaşa kazino və qumar fəaliyyətindən formalaşır. Bu göstərici bölgənin nə dərəcədə bu sahədən asılı olduğunu və eyni zamanda bu sənayenin iqtisadiyyat üçün necə güclü bir təkanverici qüvvəyə çevrildiyini nümayiş etdirir. Las Veqasla müqayisədə daha yüksək gəlir gətirən Makao, əsasən Çin, Honqkonq, Cənubi Koreya və Yaponiyadan gələn yüksək gəlirli turistləri qəbul edir.

Kazino kompleksləri yalnız qumarla məhdudlaşmır. Burada iri otel zəncirləri, ticarət mərkəzləri, əyləncə parkları və konfrans salonları da yerləşir. Bu da öz növbəsində regionda xidmət sektorunun sürətli inkişafına, məşğulluğun artmasına və beynəlxalq sərmayənin cəlb olunmasına səbəb olur. Makao modelinin əsas üstünlüyü odur ki, bu sahə ciddi hüquqi və maliyyə nəzarəti altında fəaliyyət göstərir, eyni zamanda dövlət büdcəsinə hər il milyardlarla dollar vəsait gətirir. Azərbaycan üçün Makao təcrübəsi, qapalı və tənzimlənən kazino zonalarının yaradılması modelinin mümkün tətbiqini nəzərdən keçirmək baxımından maraqlı nümunə ola bilər. Bu, həm daxili sosial balansın qorunması, həm də iqtisadi artımın təşviqi üçün optimal həll yollarından biri hesab oluna bilər.

Sinqapur, Filippin, Monako və Kamboca kimi ölkələr də uzun illərdir kazino sektorundan strateji şəkildə istifadə edərək iqtisadi inkişafını dəstəkləyirlər. Bu ölkələrdə kazinolar yalnız əyləncə vasitəsi kimi deyil, həm də dövlətin büdcə gəlirlərini artıran, turizm potensialını gücləndirən mühüm iqtisadi alətə çevrilib. Məsələn, Sinqapurda yerləşən "Marina Bay Sands" və "Resorts World Sentosa" kimi beynəlxalq kazinolar, ölkəyə hər il milyonlarla turist cəlb edir, onların yaratdığı xərcləmə dövriyyəsi otel, restoran, nəqliyyat və pərakəndə ticarət sahələrində əhəmiyyətli dinamika yaradır. Filippin də son illərdə kazino sənayesinə böyük investisiyalar yönəldərək bu sektoru Cənub-Şərqi Asiya turizminin mərkəzlərindən birinə çevirib. Kambocada isə kazino fəaliyyəti əsasən turistlərə yönəlib və bu sahə dövlətin valyuta ehtiyatlarına sabit axın təmin edir. Monako kimi kiçik, lakin strateji məkanda yerləşən ölkə isə lüks və yüksək səviyyəli kazino sənayesini öz milli brendinə çevirib. "Monte Karlo" kazinosu təkcə qumar turizmi deyil, həm də dünya maliyyə və mədəniyyət dairələrinin diqqətini bu ölkəyə yönəldir.

Bu nümunələr göstərir ki, kazino sənayesi düzgün hüquqi və inzibati mexanizmlərlə idarə olunduqda ölkəyə həm investisiya, həm də yüksək gəlirli turist axını gətirə bilər. Mütəxəssislərin fikrincə, Azərbaycanda da kazinoların fəaliyyətə başlaması, xüsusilə turizm axınının kəskin şəkildə artmasına səbəb ola bilər. Qonşu ölkələrdən, Yaxın Şərq və MDB məkanından gələn turistlər, əgər bu cür xidmətləri Azərbaycanda da taparlarsa, həm əyləncə üçün, həm də istirahət məqsədilə ölkəni üstün tutacaqlar. Bu isə öz növbəsində hotelçilik, nəqliyyat, iaşə və digər xidmət sahələrinə geniş imkanlar yaradacaq.

Bütün bunlar göstərir ki, qlobal miqyasda kazino sənayesi artıq yalnız lokal və ya regional deyil, dünya iqtisadiyyatının əsas istiqamətlərindən biri kimi formalaşıb. Bu sahənin illik dövriyyəsi yarım trilyon dollardan artıqdır və hər il artan dinamika ilə inkişaf edir. Rəsmi statistikaya əsasən, 2023-cü ildə dünya üzrə kazino və qumar oyunları bazarının həcmi 540 milyard dollar təşkil edib. 2024-cü ildə isə bu rəqəm daha da yüksələrək 580 milyard dollara çatıb. Analitiklərin proqnozlarına görə, 2028-ci ilədək bu göstəricinin 745 milyard dollara qədər artacağı gözlənilir. Qlobal təcrübə göstərir ki, kazinolar təkcə iqtisadi artıma deyil, həm də kölgə iqtisadiyyatının qarşısının alınmasına, cinayətkar gəlirlərin məhdudlaşdırılmasına və həssas sosial qrupların daha effektiv şəkildə qorunmasına xidmət edə bilər.

Bəs Azərbaycanda necə? Kazino sektorunun açılması turist axınına necə təsir edə bilər? Aydın məsələdir ki, xaricdən gələn və bu sahəyə maraq göstərən turistlər ölkəmizdə kazinoların fəaliyyət göstərməsinə görə həm əyləncə, həm də əlavə xərcləmələrlə turizm sənayesini dəstəkləyəcək, otellərdən və restoranlardan istifadə edəcək, nəqliyyat, aviasiya və digər xidmət sahələrində aktivlik yaradacaqlar. Hazırda ölkədə kazinoların olmaması bəzi vətəndaşların qeyri-leqal onlayn oyun platformalarına yönəlməsinə səbəb olur. Bu isə onları fırıldaqçılıq hallarının qurbanına çevirir. Bu baxımdan, Azərbaycan üçün də bu sahənin hüquqi tənzimləmə bazasının formalaşdırılması həm iqtisadi, həm hüquqi, həm də sosial baxımdan məqsədəuyğun hesab edilə bilər.

Azərbaycanda uzun illərdir ki, kazinolara rəsmi şəkildə icazə verilmədiyi üçün bu əyləncə növünə maraq göstərən vətəndaşlar alternativi xarici ölkələrdə axtarmağa məcbur olurlar. Bu tendensiya isə ölkədən hər il milyonlarla manat vəsaitin xaricə axması ilə nəticələnir. Məlumatlara görə, Gürcüstandakı kazinoların ümumi gəlirlərinin təxminən 20 faizi məhz Azərbaycan vətəndaşlarının hesabına formalaşır. Bu rəqəm ciddi iqtisadi itkiləri ortaya qoyur. Əgər Azərbaycanda bu sahə leqallaşdırılarsa, həmin vəsaitlərin xaricə yönəlməsi dayanar, iqtisadi dövriyyə ölkə daxilində qalaraq milli iqtisadiyyata xidmət edər. Bu addım ilk növbədə hotelçilik, restoran biznesi, nəqliyyat və xidmət sənayesi kimi turizm sektoru və onunla əlaqəli sahələrə güclü təkan verə bilər. Yeni iş yerlərinin yaradılması, vergi daxilolmalarının artması, yerli infrastrukturun modernləşdirilməsi və ümumi iqtisadi aktivliyin yüksəlməsi bu prosesin müsbət nəticələri olar. Kazinoların yaradılması, xüsusilə turist axınına daha açıq olan regionlarda məsələn, Xəzəryanı ərazilərdə, Qəbələ, Naftalan, Lənkəran kimi kurort potensialı olan bölgələrdə həm xarici turistlər, həm də ölkə vətəndaşları üçün yeni əyləncə və istirahət imkanları yaradacaq.

Dünya təcrübəsi göstərir ki, Monako, Makao, Las-Veqas kimi ərazilərdə kazino sənayesi şəhərlərin əsas iqtisadi dayağına çevrilib. Bu sahədə minlərlə iş yeri yaradılır, infrastruktur layihələri həyata keçirilir, hava limanları genişləndirilir, yollar və hotellər yenilənir. Nəticədə, bu inkişafdan yalnız turistlər deyil, yerli əhali də faydalanır. Kazinolar iqtisadi artımın lokomotivlərindən birinə çevrilir və şəhərləri beynəlxalq investisiya və turizm mərkəzinə çevirir. Bu baxımdan, Azərbaycanda da kazino sektorunun hüquqi bazasının yaradılması, ciddi dövlət nəzarəti altında fəaliyyətə başlaması yalnız iqtisadi deyil, həm də sosial və hüquqi baxımdan strateji əhəmiyyət daşıyır. Bu sahənin inkişafı dövlət büdcəsi üçün sabit və yüksək gəlirli bir mənbəyə çevrilə bilər, eyni zamanda qanunsuz fəaliyyətlərin qarşısının alınması, vətəndaşların hüquqlarının qorunması və beynəlxalq turizmdə rəqabət qabiliyyətinin artırılması baxımından mühüm nəticələr verə bilər.

Müvafiq olaraq artıq ölkəmizdə kazino sektorunun inkişafı istiqamətində mühüm hüquqi addımlar atılır. Milli Məclis tərəfindən ötən gün kazinoların fəaliyyətinə dair qanuna təklif olunan dəyişiklik layihəsi birinci oxunuşda qəbul edilib. Bu, Azərbaycanda kazino oyunlarının yalnız xüsusi, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi, o cümlədən Xəzər (gölündə) dənizində süni torpaq sahələrində təşkilinə icazə verir və virtual, onlayn platformalarda kazino fəaliyyətini qəti şəkildə qadağan edir. Qanun layihəsinə əsasən, kazino oyunlarının təşkili yalnız lisenziyalı hüquqi şəxslər tərəfindən həyata keçirilə bilər. Lisenziya müvafiq orqan tərəfindən, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə" qanunlarının tələbləri nəzərə alınmaqla, ciddi nəzarət və tələblər əsasında verilir. Həmçinin, yaşı 21-dən aşağı olan şəxslərin kazino oyunlarında iştirakına yol verilmir. Əhəmiyyətli məqamlardan biri də kazino oyunlarının təşkili üçün dövlət tərəfindən illik ödəniləcək yüksək məbləğdə - 340 min manat həcmində dövlət rüsumunun müəyyən edilməsidir ki, bu da gəlirlərin dövlət büdcəsinə çevrilməsi prosesini təmin edəcək.

1998-ci ildən qadağan edilmiş kazino fəaliyyəti yenidən yalnız qanun çərçivəsində, sosial və iqtisadi təhlükəsizlik prinsiplərinə uyğun şəkildə təşkil olunacaq. Qanun layihəsi ilə həm ölkəyə əlavə investisiyaların cəlb olunması, həm turizm sektorunun inkişafı, həm də qeyri-leqal qumar biznesi ilə mübarizə üçün güclü hüquqi baza yaradılır. Bu hüquqi islahatların həyata keçirilməsi Azərbaycanın regional turizm bazarında rəqabətqabiliyyətliliyini artırmaqla yanaşı, dövlət büdcəsinə əlavə və sabit gəlir mənbəyinin açılmasına, yeni iş yerlərinin yaradılmasına və infrastrukturların inkişafına şərait yaradacaq. Nəticə etibarilə, düzgün tənzimləmə və nəzarət mexanizmləri ilə kazino sektoru həm iqtisadi, həm sosial, həm də hüquqi sahədə ölkəmizin inkişafına əhəmiyyətli töhfələr verə bilər.

**Tacir SADIQOV,**
**"Respublika".**